BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Sosial-siyasi elmlər seriyası 2006

# PEDAQOGİKA TARİXİNDƏ SOSİAL PEDAQOJİ İDEYALAR

**H.Ə.ƏLİZADƏ**
*Bakı Dövlət Universiteti*

*Pedaqoji fikir tarixi sosial pedaqoji ideyalarla zəngindir. Bu məsələyə diqqət yetirən müəllif, məqalədə antik dövrün böyük mütəfəkkirlərinin, orta əsrlər Azərbaycanının elm və mədəniyyət xadimlərinin, Avropa intibah dövrünün, o cümlədən XII-XIII əsrdə yaşamış Avropa filosof və pedaqoqlarının, Azərbaycan maarifçilərinin, XIX-XX əsr ABŞ, Avropa, rus və Azərbaycan alimlərinin sosial pedaqoji ideyalarını maraqlı məzmunda açıqlamış və təhlil etmişdir.*

Pedaqoji fikir tarixi sosial pedaqoji ideyalarla zəngindir. Bu ideyalar uzun müddət sosial pedaqoji axarda dəyərləndirilməmiş və ümumi pedaqoji konteksdə qavranılmışdır. Başqa sözlə, bu gün sosial pedaqogikanın səlahiyyətinə aid edilən müxtəlif məsələlər vaxtilə görkəmli pedaqoqların diqqətini cəlb etsə də, onlar bir tərəfdən ümumi pedaqoji terminlərlə açıqlanmış, digər tərəfdən, mahiyyəti etibarilə sistemli araşdırılmamışdır. Lakin sosial pedaqoji ideyaların əmələ gəlməsi öz dövrü üçün böyük əhəmiyyətə malik olmuşdur. Bu ideyalar pedaqoji fikrin inkişafında önəmli rol oynamaqla yanaşı sosial pedaqogikanın nisbətən müstəqil elm sahələrindən biri kimi formalaşması üçün əlverişli zəmin yaratmışdır.

Antik dünyanın böyük mütəfəkkirləri kimi fəlsəfi-etik fikrin inkişafında önəmli rol oynamış Sokrat (469-399), Platon (427-347) və Aristotel (384-322) görünür, həm də dünyanın ilk sosial pedaqoqları olmuşlar. Onların quldarlıq cəmiyyətində quldar balalarının təlim-tərbiyəsi sistemini yaratmaları bu baxımdan diqqəti xüsusilə cəlb edir. Quldar balalarının təlim-tərbiyə sistemi mahiyyətcə sosial-pedaqoji sistem idi. Sokratı, Platonu və Aristoteli ilk növbədə quldarlıq cəmiyyətinin tərbiyə potensialı maraqlandırırdı və onlar bu tərbiyə potensialını məhz sosial-pedaqoji ölçülərlə dəyərləndirirdilər.

Bu sahədə Azərbaycan pedaqoji fikrinin uğurları da əlamətdardir. Hələ ən qədim zamanlarda uşaqların tərbiyəsində milli adət-ənənələrdən məharətlə istifadə olunurdu. Müəyyən edildiyi kimi milli adət-ənənələr uşaqlara mərasim dərsləri vasitəsilə aşılanırdı. Vaxtilə Avesta duaları və nəğmələrinin əzbərlənməsi sahəsində özünəməxsus ənənə bərqərar olmuşdu. Uşaqlara ad qoyma mərasimləri sosial-pedaqoji baxımından seçimli idi. Oğlanlarla yanaşı qızlara da at çapmaq, ox atmaq, nizə və qılınc oynatmaq bacarıqları aşılanırdı (6,26-28).

Azərbaycan xalq ədəbiyyatının ən qədim və möhtəşəm abidələrindən biri olan "Kitabi-Dədə-Qorqud" dastanlarında xalqın tərbiyə ideyaları, həm də sosial-pedaqoji konteksdə özünün aydın ifadəsini tapmışdır.

Azərbaycan pedaqoqlarının göstərdikləri kimi, "Kitabi-Dədə Qorqud" da ailə məsələlərinə, toy-büsat, qardaşın-bacıya, bacının-qardaşa və b. münasibətlərinə geniş yer verilmiş, həmin münasibətlər dövrün ictimai-siyasi tələbləri baxımından şərh edilmişdir. Dastanın özünəməxsus pedaqoji poetikası da seçimlidir. O, böyük el ağsaqqalı, müşkül işləri həll edən, qəhrəmanlara ad qoyan, gələcəkdən xəbər verən Dədə Qorqudun öyüdləri ilə başlayır. Həmin öyüdlərdə qiymətli, tərbiyəvi fikirlər, fəlsəfi ideyalar ifadə edilir və dastanlardakı hadisələr həmin öyüdlərin mahiyyəti və məzmununa uyğun cərəyan edir. Dədə Qorqudun 54 öyüdü içərisində 16-sı ailə və ailə tərbiyəsi ilə bağlıdır (7, 80-83).

Övladın doğulmasını Vətənin müdafiəsi, nəslin yaşaması olduğunu dərk edən Oğuz elinin ağsaqqalı ailənin övladla möhkəmləndiyini söyləmiş, övladsızlığı lənətləmişdir. "Kitabi-Dədə Qorqud"da ata-oğul, ana-oğul münasibətləri sosial-pedaqoji ölçülərlə vəsf olunur, "yaşlı nəsli gənc nəslə, gənc nəsli isə yaşlı nəslə qaynaq edən iki mühüm amil-valideynlərə məhəbbət və namus çox böyük məharətlə təsvir edilir. Bütün qəhrəmanlar-atalar və oğullar, analar və qızlar, ərlər və nişanlılar, bacılar və qardaşlar ən çətin anlarda bu amillərdən qüvvət alır və qələbə çalırlar".

Müdrik Dədə Qorqudun öyüdləri eldə-obada böyük təsir gücünə malik idi. Xalq ona inanırdı və öz adət-ənənələrində bənzərsiz öyüdlərini yaşadırdı. Bu bənzərsiz öyüdlərdə Azərbaycan xalq pedaqogikasının həmişəyaşar kanonları səslənirdi.

Xalq pedaqogikasının demokratik ideyaları pedaqoji fikrin inkişafında önəmli rol oynayırdı. Dövrün görkəmli pedaqoqlarının dünyagörüşünün formalaşmasına onlar böyük təsir göstərmişdi.

Orta əsrlər Azərbaycanın Qətran Təbrizi (1010-1080), Əbülhəsən Bəhmənyar (....-1065), Əfzələddin Xaqani Şirvani (1120-1199), Xətib Təbrizi (1030-1109), Nizami Gəncəvi (1141-1209), Nəsirəddin Tusi (1201-1274), Marağalı Əvhədi(1274-1338), Əssar Təbrizi (1325-1390), İmadəddin Nəsimi (1369-1417), Qasım Ənvar (....- 1434), Şah İsmayıl Xətai (1487-1524), Məhəmməd Füzuli (1498-1556), Saib Təbrizi (1601-1676) kimi elm və mədəniyyət xadimləri dövrün görkəmli pedaqoqları və müəllimləri kimi məşhur idilər (8,19-20). Onların bənzərsiz əsərləri özgün sosial-pedaqoji ideyalarla zəngindır.

Nizaminin (1141-1209) "Xəmsə"si nəinki dünya bədii fikrinin, həm də fəlsəfi-pedaqoji fikrinin bənzərsiz hadisəsidir. Nizaminin pedaqoji görüşləri orta əsrlərdə pedaqoji fikrin inkişafında xüsusi yer tutur. Böyük mütəfəkkir şair uşaqların tərbiyəsi məsələlərini təhlil edəndə onları həm sosial-pedaqoji kontekstdə açıqlamış, müəllim-şagird münasibətlərinin xüsusiyyətlərinə, uşaqların mənlik şüurunun formalaşmasında dini təhsilin əhəmiyyəti kimi önəmli məsələlərə diqqəti cəlb etmişdir.

Nizaminin "İsgəndərnamə"sində bəlkə də dünya ədəbiyyatında və pedaqogikasında ilk dəfə ali qadın məktəbi təsvir olunmuşdur. "Leyli və Məcnun"da təsvir olunmuş oğlan və qız məktəbi də bu baxımdan son dərəcə əlamətdardır (8,20). Nizaminin humanizmi onun pedaqoji fikirlərinin də ana xəttini təşkil edir.

Avropada intibah dövründə humanizm problemləri xüsusilə önəmli olmuşdur. Dövrün sosial-pedaqoji ideyaları da, ilk növbədə,bu zəmində əmələ gəlmiş və formalaşmışdır.

Əgər Fransua Rable (1483-1553) uşaqlara humanist münasibəti tərbiyə işində ön plana çəkirdisə, Mişel de Monten (1553-1592) dövrün

məktəblərini həqiqi həbsxanalara bənzədərək onların xüsusiyyətlərini qul tərbiyəsi anlamında açıqlayırdı. “Hökmünü məhəbbət üzərində deyil, zor kökündə quran məktəblər qul tərbiyə edir ”-onun qənaəti belə idi.

Tommazo Kompanelli (1558-1639) “Günəş şəhəri”əsərində əməyi sosial pedaqoji ölşülərlə dəyərləndirir, ümumi təhsil problemlərinə mahiyyətcə cəmiyyətin tərbiyə potensialı baxımından yanaşır.

Böyük Çex pedaqoqu Y.A.Komenskinin (1592-1670) zəngin irsi sosial-pedaqoji aspektdə ətraflı təhlil olunmasa da,bir cəhət şəksizdir:onun feodal məktəblərinin təhlilinə həsr olunmuş əsərlərində sosial pedaqoji aspekt əlamətdardır. Y.A.Komenski feodal məktəblərini əqlin həbsxanası adlandırırdı.

Azərbaycan pedaqoji fikrinin də bu sahədə uğurları fərəhlidir. Nəsirəddin Tusinin “Əxlaqi-Nasiri”traktatında gənc nəslin ailə həyatına hazırlanmasının əsaslı sosial-pedaqoji konsepsiyası özünün aydın ifadəsini tapmışdı. “Əxlaqi-Nasiri”də qadınların tipoloji xarakteristikası verilmiş, ər-arvad münasibətlərinin inkişafı üçün xüsusi əhəmiyyətə malik olan sosial-pisixoloji normalar açıqlanmış, ailədə mənəvi-psixoloji iqlim yaratmağın şərtləri təhlil olunmuşdur. Oğlan və qız tərbiyəsinin xüsusiyyətləri də məhz bu aspektdə araşdırılmışdır. Onun qız tərbiyəsi haqqındakı fikirləri xüsusilə maraqlıdır. Nəsirəddin Tusinin fikrincə, qızlara “evdarlıq”, “yaşamaq qaydaları”, “qadınlar üçün gözəl hesab edilən sənətlər öyrədilməli”, onlarda vüqar (“vüqarlı olmaq”), “iffət”, “həya” hissi tərbiyə olunmalıdır. “Əxlaqi –Nasiri”də gənclərin ailə həyatına hazırlanmasının məzmunu və sistemi özünəməxsus konseptual model əsasında açıqlanmışdır (7, 94-98).

Marağalı Əvhədi bu ideyaları yaradıcılıqla inkişaf etdirərək uşaqların mənəvi tərbiyəsində ailə münasibətlərinin bu sahədə rolunu xüsusilə vurğulamışdır.

Seyid İmadəddin Nəsimi mənəvi tərbiyə məsələlərini hürufilik kontekstində açıqlamış, Şah İsmayıl Xətai müəllim-şagird münasibətlərini önəmli sosial-pedaqoji problem kimi ayırd etmiş, Məhəmməd Füzuli isə dünya sosioloji, psixoloji və pedaqoji fikrində bəlkə də ilk dəfə olaraq valideyn-övlad münasibətlərində özünü göstərən ixtilafların amansız nəticələrinə diqqəti cəlb etmişdir. Dahi şair ölməz əsərlərində vətənsevərlik hissini ilhamla vəsf etmişdir.

XVII-XVIII yüzillikdə İngiltərədə Con Lokk (1632-1704), Fransada K.Helvetsi (1715-1771), D.Didro (1713-1784) və J.J.Russo (1712-1788) feodal məktəb sisteminə qarşı ciddi mübarizə aparırdılar. Onların əsərlərində sosial pedaqoji məsələlərinin təhlilinə geniş yer verilirdi. C.Lokkun “Centlmen nəzəriyyəsi” xüsusilə maraqlı idi. J.J.Russonun uşaqların istismar edilməsinə, ona zorakılıq göstərilməsinə qarşı apardığı mübarizə sosial-pedaqoji fikrin inkişaf tarixində, şübhəsiz ki, həmişə layiqli yer tutacaqdır.

Sosial-pedaqoji fikrin inkişafında İ.H.Pestalotsi (1746-1828), İohan Fridrix Herbart (1776-1841), A.Disterverq (1790-1866) və R.Ouen (1771-1858) mühüm rol oynamışlar.

Bu dövr sosial-pedaqoji ideyaların inkişafında xüsusi yer tutur. Bir tərəfdən, İ.H.Pestalotsi yetim uşaqlar üçün evlər təşkil edir, yetim uşaqların tərbiyəsi sosial-pedaqoji baxımda artıq önəmli problem kimi ayırd edilir. Digər tərəfdən, R.Ouen fəhlə uşaqları üçün məktəbəqədər

tərbiyə müəssisəsi, istehsalatda işləyən uşaq və yeniyetmələr üçün axşam məktəbləri yaradır.

İ.H.Pestalotsi və R.Ouen öz axtarışlarında müxtəlif prinsiplərə söykənirdilər, onların elmi-pedaqoji konsepsiyaları bir çox cəhətdən fərqlənirdi. Lakin bu axtarışlar tarixi əhəmiyyətə malik idi. Yetim evlərinin, məktəbəqədər müəssisələrin, axşam məktəblərinin yaranması cəmiyyətin tərbiyə potensialının optimallaşdırılması məramı ilə aparılan sosial pedaqoji axtarışların uğurlu nəticəsi idi.

Bəzi mütəxəssislər İ.H.Pestalotsi və R.Ouenin təşkil etdikləri yetim evlərini, məktəbəqədər uşaq müəssisələrini, axşam məktəblərini haqlı olaraq dövrün diqqətəlayiq sosial-pedaqoji eksperimentləri hesab edirdilər. Onlar bu eksperimentlərlə əslində müasir sosial-pedaqoji araşdırmaları qabaqlamışdılar.

Azərbaycan maarifçilərinin bənzərsiz tədqiqatları da bu ideyalarla səsləşirdi. Ümumi icbari təhsil, qadın təhsili, ana dilinin əhəmiyyəti, kənd məktəbləri, fəhlə uşaqları üçün məktəblər və s. kimi aktual məsələlər M.F.Axundov (1812-1870), Həsən bəy Zərdabi (1842-1907), Məmmədağa Şaxtaxtinski (1848-1930), Məmməd Tağı Sidqi (1854-1903), Rəşid bəy Əfəndiyev(1863-1942), Firidun bəy Köçərli (1863-1920), Mahmud bəy Mahmudbəyov (1863-1920), Soltan Məcid Qənizadə (1866-1937) kimi görkəmli mütəfəkkirlərin pedaqoji axtarışlarının ana xəttini təşkil edirdi.

XIX yüzillik sosial-pedaqoji ideyaların inkişafında xüsusi mərhələ təşkil edir. Müxtəlif yönümdə aparılan araşdırmaların məntiqi nəticəsi olaraq cəmiyyətin önəmli pedaqoji problemləri sosial kontekstdə bütün aydınlığı ilə dərk olunur və mənalandırılırdı. Artıq sosial pedaqogikanın nisbətən müstəqil elm sahəsi kimi formalaşması üçün əlverişli şərait yaranmışdı. Bu zərurəti görmək və əsaslandırmaq şərəfi dünya pedaqogikasında ilk dəfə məşhur alman pedaqoqu A.Disterverqə nəsib olmuşdur. O, bütün aydınlığı ilə dərk edirdi ki, cəmiyyətin tərbiyə potensialını təhlil edəndə pedaqoji ideyalar məntiqi surətdə sosial ideyalarla bilavasitə uzlaşır. Bu ideyaları artıq pedaqogikada bərqərar olmuş təlim və tərbiyə anlamında açıqlamaq mümkün deyil. Bunun üçün pedaqogikada yeni elmi istiqamət formalaşmalıdır. A.Disterverq həmin istiqaməti sosial pedaqogika adlandırırdı.

Sosial pedaqogikanın nisbətən müstəqil elm sahəsi kimi ayırd edilməsi pedaqoji fikir tarixində önəmli hadisə idi. Lakin sosial pedaqogika anlamının taleyi uğurlu olmadı, hətta onu bir elmi termin kimi uzun müddət dəyərləndirmədilər.

XIX əsrin sonu XX əsrin əvvəllərində sosial pedaqogika a)xalqın mədəni səviyyəsini yüksəltmək məqsədilə cəmiyyətin tərbiyə imkanlarının inteqrasiyası (P.Natorp və b.); b) evsiz-eşiksiz uşaqlara sosial kömək, onlara qəyyumluq, yetkinlik yaşına çatmamışlar arasında cinayətkarlığın profilaktikası (Q.Nol,Q.Boymer və b.) kimi başa düşülürdü (9,4-5).

Görkəmli alman pedaqoqu P.Natorp əslində A.Disterverqin, sosial pedaqogikanın bir elm kimi təşəkkül tapmasında önəmli rol oynamış həmvətəninin işini davam etdirirdi. XX əsrin əvvəllərində Almaniya sosial-pedaqoji fikrin mərkəzinə çevrilmişdi. P.Natorpun “ Sosial pedagogika” kitabı bu dövrdə elmi fikrin böyük uğuru kimi diqqəti cəlb edirdi. Bu kitab təkcə Alman sosial pedaqogikasında önəmli hadisə de-

yildi. Natorpun “Sosial pedaqogika”sı bu adla nəşr olunmuş ilk kitablarından biri кimi dünya pedaqoji fikrində böyük əks-səda doğurmuşdu. Onun “Sosial pedaqogika” kitabı 1911-ci ildə, “Xalqın mədəniyyəti və şəxsiyyətin mədəniyyəti” monoqrafiyası isə 1912-ci ildə rus dilinə tərcümə edilərəк, Sankt-Peterburqda nəşr olunmuşdu.

P.Natorpun və onun əməkdaşlarının əsərlərində xalqın mədəni səviyyəsinin yüksəldilməsi sosial pedaqoji problem kimi təhlil olunur və cəmiyyətin tərbiyə imkanlarının inteqrasiyası məsələləri bu axarda araşdırılırdı. Onun fikrincə, cəmiyyətdə həmrəyliyin sağlam əsası beşikdən tutmuş qəbir evinə qədər tərbiyə olmalıdır.

P.Natorpun sosial pedaqoji görüşləri öz-özlüyündə nə qədər maraqlı olsa da, tədricən unuduldu. ABŞ-da və Avropada C.Düinin pedaqoji ideyaları vüsətlə yayılmağa başladı. Onun fikrincə, gələcəyin məktəbi cəmiyyətin sosial-iqtisadi tələbatları ilə üzvi surətdə qovuşmalıdır.

I dünya müharibəsinin fəlakətləri yüzlərlə, minlərlə uşağın taleyinə özünün qara kölgəsini salmışdı. Evsiz-eşiksiz qalmış yetim uşaqların tərbiyəsi dövrün aktual sosial pedaqoji probleminə çevrilmişdi. Yanuş Korçakın Polşada, A.S.Makarenko Rusiyada bu sahədə fədakarlıqla axtarışlar aparırdılar. Onların bu axtarışları dövrün sosial-pedaqoji problemlərini konseptual yönümdə açıqlamaq üçün əlverişlı şərait yaradırdı.

Yanuş Korçakın, A.S.Makarenkonun zəngin irsi ümumi pedaqoji aspektdə öyrənilsə də, sosial pedaqoji yönümdə hələ təhlil olunmamışdır. Onlar sözün əsl mənasında dövrün, ilk növbədə görkəmli sosial pedaqoqları olmuşlar.

A.S.Makarenkonun axtarışlarında sosial-pedaqoji baxımda son dərəcə maraqlı olan bir önəmli problem-kollektivdə və kollektiv vasitəsilə tərbiyə problemi xüsusi yer tutur.

Istər II dünya müharibəsindən əvvəl, istərsə də sonrakı illərdə tərbiyə problemlərini araşdıran pedaqoqlarla bahəm, həm də filosoflar, sosioloqlar və psixoloqlar onun ideyalarına arxalanmışlar. A.S.Makarenko çətin bir şəraitdə-repressiya dövründə fəaliyyət göstərirdi və bu cəhət şübhəsiz ki, onun təlimində də öz əksini tapmışdır. Pedaqoji fikir tarixində önəmli yer tutan bu təlimdə dövrün birtərəfli ideoloji ehkamlarına az təsadüf olunmur, lakin onun əsərlərində kollektivdə qarşılıqlı münasibətlərin tənzim edilməsinin özünəməxsus sosial-pedaqoji sistemi öz əksini tapmışdır. “Pedaqoji poema” da məhz bu baxımdan sosial-pedaqoji ideyalarla zəngindir.

A.S.Makarenko ailə tərbiyəsi problemlərinə də geniş planda yanaşmış, pedaqoji məsələləri psixoloji məsələlərlə qarşılıqlı əlaqədə nəzərdən keçirmiş, sosiologiya və demoqrafiyanın (statistikanın) nailiyyətlərindən sözün əsl mənasında faydalanmışdır. Onun ailə tərbiyəsi haqqındakı əsərlərini ətraflı təhlil etmək üçün bu məsələlərə xüsusi diqqət yetirilməlidir.

Məlumdur ki, 1926-1935-ci illərdə A.S.Makarenkonun həyat və fəaliyyəti Xarkov şəhəri ilə bağlı olmuşdur. O zaman Xarkov Ukrayna Respublikasının paytaxtı idi. Orada təbiətşünaslıq elminin müxtəlif nümayəndələri ilə yanaşı, görkəmli sosioloqlar, demoqraflar və psixoloqlar da geniş fəaliyyət göstərirdilər. 30-cu illərin əvvəllərində məşhur psixoloqlardan A.N.Leontyev, A.V.Zaporojets, D.B.Elkonin bə b. Xarkovda işləyirdilər. Görkəmli demoqraf A.P.Xomenkonun tədqiqatları bütün

ölkədə məşhur idi. Onun 1930-cu ildə Xarkovda nəşr olunmuş kitabında boşanmadan sonra uşaqların həyatı demoqrafik aspektdə təhlil edilirdi.

A.S.Makarenko belə bir elmi mühitdə fəaliyyət göstərirdi. O, özünün nəzəri-metodoloji əsərlərində də pedaqogikanın müxtəlif elm sahələri ilə qarşılıqlı əlaqəsinə nəinki böyük əhəmiyyət verir, həm də onların nailiyyətlərindən yaradıcılıqda faydalanırdı. A.S.Makarenko əsərlərində tərbiyənin, o cümlədən ailə tərbiyəsinin sosioloji məsələlərinə ardıcıl surətdə diqqət yetirmiş, uşaqların bir şəxsiyyət kimi formalaşması prosesində demoqrafik amillərin təsirini nisbətən geniş təhlil etmişdir.

A.S.Makarenkonun pedaqoji məntiqi aydın idi: ailəni sosioloji və demoqrafik baxımdan nəzərdən keçirmədən, ailə tərbiyəsinin xüsusiyyətlərini aydınlaşdırmaq mümkün deyildi. Onun müxtəlif elmlərə müraciət etməsi metodoloji nöqteyi-nəzərdən qanunauyğun hal idi. Görkəmli pedaqoqun irsi əsaslı surətdə göstərir ki, pedaqogikanın başqa elmlərlə qarşılıqlı əlaqəsi onun inkişafında mühüm şərtlərdən biridir.

A.S.Makarenko ailənin quruluşu məsələlərinə xüsusi əhəmiyyət verirdi. O, göstərirdi ki, ”bizim pedaqogikamızda bu məsələyə heç kəs toxunmamışdır, müşahidə etdiyimiz bir çox hadisələrə görə və xüsusilə kommunaya gələn uşaqları öyrənmək əsasında mən bu nəticəyə gəlirəm ki, ailənin quruluşu məsələsi, onun tərkibi, səciyyəsi məsələsi başlıca əhəmiyyətə malik olan bir məsələdir”. O, bu baxımdan çox və tək uşaqlı ailənin tərbiyə imkanları, natamam ailədə uşaqların tərbiyəsi, boşanma və onun pedaqoji nəticələri kimi bu gün də xüsusi aktuallıq kəsb edən məsələləri öz dövrünün imkanları səviyyəsində məharətlə aydınlaşdırır.

A.S.Makarenko tək və çox uşaqlı ailələri pedaqoji meyarlarla müqayisə edirdi. Onun fikrincə, “tək bir oğul, yaxud tək qızı tərbiyə etmək bir neçə uşağı tərbiyə etməkdən xeyli ağır və daha çətin işdir. Hətta ailə bəzi maddi çətinliklər hiss etsə belə, təkcə bir uşaqla kifayətlənmək olmaz”.

Bu sətirlərdə çoxuşaqlı ailənin tərbiyə imkanları böyük məharətlə təhlil olunur. Aşağıdakı sözlərə diqqət yetirin: “yalnız bir neçə uşağı olan ailədə valideynlərin qayğısı normal səciyyə daşıya bilər”, böyük ailədə uşaq hələ kiçik yaşlarından kollektivə adət edir, qarşılıqlı əlaqə təcrübəsi qazanır.

“Valideynlər üçün kitab”ın birinci cildində ailənin tərbiyə imkanları demoqrafik baxımdan geniş təhlil olunur. Təsadüfi deyildir ki, A.S.Makarenko birinci cilddə “mahiyyət etibarilə hələ heç bir pedaqogikadan danışmadığını” etiraf edir. Kitab vasitəsi ilə bəzi valideynlərdə böyük ailə sahibi olmaq arzusu oyatmağa çalışan müəllif təkcə bir uşaq böyütmək meylini haqlı olaraq tənqid edirdi.

A.S.Makarenko natamam ailələrdə də tərbiyə məsələlərinə diqqət yetirmişdir. O, göstərirdi ki, ərlə arvad bir-birindən ayrıldıqda bütün tərbiyə prosesi təhlükə altına düşür. “Valideynlərin bir yerdə yaşamaması, bir-birindən böşanıb ayrılması uşaq tərbiyəsinə olduqca pis təsir edir. Çox vaxt uşaq valideynlər arasında mübahisə və çəkişmə obyektinə çevrilir, valideynlər bir-birinə açıq şəkildə nifrət edirlər və bunu uşaqlardan gizlətmirlər”.

A.S.Makarenko atanın və yaxud ananın öz ailəsini atıb başqa ailəyə getməsini “ən xəstə hal” hesab edirdi. O, yazırdı: “Mən çox yaxşı başa düşürəm ki, biz köhnə normaya qayıda bilmərik”. Lakin bu məsə-

ləyə çox yüngül yanaşmaq da olmaz. Sevginin özünü də təşkil etməyi bacarmaq lazımdır.

A.S.Makarenkonun valideynlərə müraciətlə dediyi aşağıdakı sözlər necə də müasir səslənir: "....atanın yaxud ananın ailədən çıxıb getməsində ailə bir kollektiv kimi dağılır və uşağın tərbiyə olunması çətinləşir. Ona görə siz öz uşağınızın qarşısında məsuliyyət hiss edirsinizsə, çıxıb getməkdən əvvəl ciddi fikirləşin. Mən kitabçada hər şeyi demişəm, lakin öz aramızda sizə deyə bilərəm ki, hərgah sizin iki uşağınız varsa və siz öz arvadınızı artıq sevməyib başqasını sevirsinizsə, yeni hissinizi söndürün. Ağırdır, çətindir. Lakin siz bu hissi söndürməyə borclusunuz, çünki sizin uşağınızın simasında gələcək vətəndaş böyüyür və siz öz sevgi səadətinizi buna müəyyən dərəcədə qurban verməlisiniz" (4,280-281).

A.S.Makarenko valideynlərə müraciətlə deyirdi: "Siz hələ həyat yoldaşı seçəndə uşaqların tərbiyəsi üçün məsuliyyət daşıyırsınız". O,hər hansı səbəbdən bir-birini atan validenlərə də "öz çəkişmə və mübahisələrində hər şeydən artıq uşaqları düşünməyi"məsləhət görürdü. Boşanmadan sonra ailə münasibətlərdə ("ata-uşaq", "keçmiş ər-arvad", "ana-uşaq" münasibətləri və s.) əmələ gələn dəyişikliklər, uşaqların tərbiyəsi baxımından onların təşkili məsələləri - müasir pedaqogikada xüsusi aktuallıq kəsb edən bu məsələlər A.C.Makarenkonun ailə tərbiyəsi haqqındakı əsərlərində bədii sözün qüdrəti ilə təhlil olunur.

Lakin bununla belə qeyd etmək lazımdır ki, ailənin ayrı-ayrı tipləri pedaqogikada bu və ya digər dərəcədə nəzərdən keçirilsə də, həmin məsələ yalnız pedaqogikanın öz imkanları daxilində araşdırılmış, bu sahədə sosial elmlərin, xüsusilə demoqrafiyanın uğurlarından faydalanmamışlar və bəlkə də müəyyən səbəblərə görə faydalana bilməzdilər.

II dünya müharibəsindən sonrakı illərdə sosiologiya, demoqrafiya, sosial psixologiya və s.-nin vüsətli inkişafı sosial pedaqoji məsələlərin öyrənilməsi üçün əlverişli şərait yaratdı. 50-ci illərin sonu- 60-cı illərin əvvəllərində sosial-pedaqogikanın təxminən bir əsrlik tarixində keyfiyyətcə yeni inkişaf mərhələsi başlayır. 50-ci illərdə yenə də Almaniyada, sosial pedaqoji fikrin mərkəzində sosial pedaqogikanın bir elm kimi banisi sayılan A.Disterverqin ənənələrini onun həmvətənləri, Alman pedaqoqları məharətlə yaşadırlar. Bu sahədə E.Mollenxayer, Q.Pfaforenberq, X.Miskes, A.Merinqer, A.Flyutner və b. elmi axtarışları xüsusilə önəmli idi (9,8-10). E.Mollenxayerin fikrincə, sosial pedaqogikanın başlıca vəzifəsi gənclərin sosial sistemə tezliklə adaptasiyasına cəmiyyətin kömək etməsi yollarını öyrənməkdən ibarət olmalıdır. Q.Pfaforenberq bu fikri daha da inkişaf etdirərək göstərirdi ki, sosial kömək nəinki gənclərə, həm də bütün yaş dövrlərində əhaliyə göstərilməlidir. Belə bir ictimai-pedaqoji kömək göstərmək üçün xüsusi funksional sistem yaradılmalıdır. X.Miskes isə öz əsərlərində belə bir fikri vurğulayırdı ki, sosial pedaqogika ümumi pedaqogikanın sosial funksiyasını açıqlayan elmi fəndir. Bu elm əhalinin bütün yaş qruplarında tərbiyə proseslərini tədqiq edir. X.Miskes hətta yeni bir elm sahəsinin – qeroqoqikanın (yaşlı və qoca adamların tərbiyəsi haqqında elmin) inkişaf etdirilməsini zəruri sayırdı.

A.Merinqer, A.Flyutner və b. göstərirdilər ki, uşaq-tərbiyə üçün obyekt deyil, hər şeydən öncə, özünəməxsus həyati tələbatlari olan insandır. Məktəbdə sadəcə olaraq "şagird" kimi qavranılır, onun ancaq bir hissəsi nəzərə alınır. Məktəb halbuki "insani sifət" kəsb etməlidir; onda

başlıca cəhət insan olmalıdır, məhz uşağın adi tələbatlarına qayğı göstərməklə onun sosial meyllərinə istiqamət vermək olar. Məktəbə rəhbərlik "sinif sahəsinin" sosial-pedaqoji və sosial-psixoloji tədqiqində başlayır. Bununla da həm sinfin,həm də məktəbin fərdi "siması" qorunub saxlanılır...

Sosial pedaqogikanın predmeti haqqındakı elm müzakirələr səmərəli oldu. 60-70-ci illərdə təhsilin sosiologiyası (R.Q.Qurova, E.K.Vasilyeva, L.Q.Zemtsov, V.İ.Popov, A.Y.Jurkina və b.) sahəsində maraqlı tədqiqatlar aparıldı. Müxtəlif demoqrafik amillərin xalq maarifinin inkişafına təsiri müxtəlif yönümlərdə öyrənildi (İ.Bolotin, V.R.Esinbayeva, N.Ximenkov, V.Myasnikov, O.A.Çernik, Z.D.Çernaqa və b.). Uşaqların tərbiyəsi problemi ailənin tipologiyası axarında ətraflı təhlil edildi (A.D.Alferov, A.A.Qusev, R.A.Kapralova,L.K.Pilipenko və b.). Bu illərdə tərbiyənin demoqrafik problemləri də monoqrafik səpkidə öyrənildi.

Sosioloqların, demoqrafların, hüquqşünasların tədqiqatlarında da sosial-pedaqogika üçün önəmli olan faktlar müəyyən edildi (A.P.Eqides, C.V.Vallerşteyn, C.Kelli, L.A.Çuyko, L.E.Darskiy, V.Tomin və b.)

Beləliklə, pedaqogikanın sosial elmlərlə inteqrasiyası onun daxilində nisbətən müstəqil bir elm sahəsinin formalaşmasında həlledici rol oynadı. Alman pedaqoqları V.Kyuxenqorf, R.Vaynşenk, A.Volf və b. onun bu istiqamətdə inkişafını səmərəli sayırdılar. Onlar bu baxımdan P.Natorpun fikirlərinin aktuallığını ayrıca qeyd edirdilər. Gənc nəslin sosial tərbiyəsi bu axtarışların axarında sosial pedaqogikanın başlıca probleminə çevrilirdi.

80-ci illərdə "Sosial pedaqogika" (9) monoqrafiyası nəşr olundu. Bu kollektiv monoqrafiyada 1977-1988-ci illərdə aparılmış sosial pedaqoji tədqiqatların yekunları özünün geniş əksini tapmışdır.

Sosial pedaqoji problemlərin tədqiqi sahəsində artıq bir canlanma hiss olunurdu. Azərbaycan pedaqogikasında da bu sahədə maraqlı axtarışlar aparılırdı. Vaxtilə qadın təhsilinin öyrənilməsi sahəsində önəmli nailiyyətlər əldə edilmişdi. Yeni şəraitdə azsaylı xalqların dillərinin öyrədilməsi, müvafiq məktəblərdə təlim-tərbiyə məsələlərinə daha çox diqqət yetirilməyə başlanılmışdı. Sosial pedaqogikanın aktual problemləri monoqrafik planda öyrənilirdi. Bu baxımdan prof. A.Abbasovun (1) və b. doktorluq dissertasiyaları Azərbaycan sosial pedaqoji fikrinin önəmli uğurları kimi qeyd olunmalıdır. Görkəmli Azərbaycan pedaqoqları əməkdar elm xadimi prof. N.M.Kazımov, prof. B.Əhmədovun "Azərbaycan məktəbi" jurnallarında dərc olunmuş məqalələri (2,13-17: 3, 85, 93) respublikada sosial pedaqogikanın inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir.

Bir cəhəti də qeyd edək. Artıq 90-cı illərdə sosial pedaqogikanın məzmunu və sistemi barəsində müasir təsəvvürləri əks etdirən orijinal proqramlar tərtib edilmişdir və sosial pedaqogika tədris fənni kimi tədris olunmuşdur. Qabaqcıl məktəblərdə praktik psixoloqlarla yanaşı sosial pedaqoqlar da fəaliyyət göstərməyə başlamışdılar. Azərbaycan məktəblərində də bu sahədə ilk addımlar atılırdı.

## ƏDƏBİYYAT

1. Abbasov A.N. Məktəbliləri ailə həyatına hazırlamağın nəzəriyyəsi və təcrübəsi. Dokt.diss.avtoreferatı. Bakı. 1995
2. Əhmədov B. Təhsildə şəxsiyyət azadlığı probleminə dair, /Azərbaycan məktəbi; 1996, №7-8.
3. Əhmədov B, Təhsildə millilik və bəşəriliyin vəhdəti /Azərbaycan məktəbi; 1998, №3.
4. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. I cild, Bakı, 1983
5. Pedaqogika. Proqramlar. Bakı, 1997.
6. Talıbov Y.R., Ağayev Ə.A., İsayev İ.N., Eminov A.İ. Pedaqogika. I Bakı, 1993.
7. Talıbov Y., Sadıqov F., Quliyev S. Gənclərin mənəvi tərbiyəsi məsələləri. Bakı, 1998.
8. Антология педагогической мысли Азербайджана. М., 1989,
9. Социальная педагогика. Теория. Методика. Опыт исследования. Изд. Уральского Университета. 1989.


## СОЦИАЛЬНО-ПЕДАГОГИЧЕСКИЕ ИДЕИ В ИСТОРИИ ПЕДАГОГИКИ


**Г.А.АЛИЗАДЕ**



### РЕЗЮМЕ

История педагогической мысли богата социально-педагогическими идеями. В статье автор, уделяя пристальное внимание к этим проблемам, в своей статье раскрыл и анализировал социально-педагогические идеи великих мыслителей античного периода, видных деятелей науки и культуры азербайджанских средних веков, период ренессанса в Европе, в том числе европейских философов, педагогов и азербайджанских писателей XVII-XVIII веков, ученых США, Европы, России и Азербайджана XIX-XX веков.